# “Aldanmış kəvakib” povestində demokratik cəmiyyət quruculuğu problemi

**Lalə Seyidzadə**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: seyidzadeh@list.ru

**Annotasiya.** Məqalədə qüdrətli maarifçi realist M.F.Axundzadənin Azərbaycan bədii nəsrinin ilk mükəmməl nümunəsi olan “Aldanmış kəvakib” (1857) əsərində müəllifin demokratik cəmiyyət quruculuğu haqqında fikirlərindən bəhs edilir. Qeyd edilir ki, Azərbaycan bədii nəsrində “Aldanmış kəvakib” əsəri ilə povest janrının əsası qoyulmuşdur. Müəllif bu əsərdə “Dünyanı bəzəyən Şah Abbasın tarixi” əsərindən tarixi hadisəni bədii fakt olaraq alsa da, tamamilə sərbəst davranaraq, özünün despot hakimiyyət və idarəçilik haqda tənqidi fikirlərini əks etdirmiş, xalq hakimiyyətinə əsaslanan demokratik hakimiyyət və cəmiyyət haqqında görüşlərini təqdim etmişdir. Axundzadə Yusif Sərracın fəaliyyətinin timsalında özünün demokratik cəmiyyət quruculuğu istiqamətində ideyalarını əks etdirməyə çalışmışdır. Müəllifin qənaətincə, hakimiyyət xalqa və xalqın qayğılarına enməli, zülmü, rüşvəti və zorakılığı ortadan qaldırmalı, ölkədə qurucu işlər həyata keçirməli, xalqa fikrini ifadə etməyə sərbəstlik yaratmalı, xəstəxanalar və məktəblər açmalı, maarifi yaymalı, insanların azad söz və inancı üçün şərait yaratmalıdır.

**Açar sözlər:** M.F.Axundzadə, “Aldanmış kəvakib”, povest, demokratik cəmiyyət

**Məqalə tarixçəsi:** göndərilib – 04.09.2022; qəbul edilib – 15.09.2022

# The problem of building a democratic society in narrative “The Deceived Stars”

**Lala Seyidzade**
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: seyidzadeh@list.ru

**Abstract.** The article talks about the ideas of the author about the building of a democratic society in the work “Aldanmish Kavakib” (“The Deceived Stars”) (1857), the most perfect example of Azerbaijani artistic prose by the powerful enlightened realist writer M.F. Akhundzade. It is noted that the foundation of the narrative genre was laid in Azerbaijani literary prose with the work “The Deceived Stars”. In this work, the author took the historical event from the work “The History of Shah Abbas, Who Decorated the World” as an artistic fact, but acting completely freely, he reflected his critical views on despotic power and management, and presented his views on the new, democratic government and society based on people's power. Akhundzade tried to reflect his ideas in the direction of building a democratic society on the example of Yusif Sarraj's activities. According to the author's opinion, the government should come down to the people and the people's concerns, eliminate oppression, bribery and violence, carry out constructive works in the country, create freedom for the people to express their opinion, open hospitals and schools, spread education, and create conditions for people's free speech and belief.

**Keywords:** M.F.Akhundzade, “The Deceived Stars”, narrative, democratic society

**Article history:** received − 04.09.2022; accepted − 15.09.2022

## Giriş / *Introduction*

Azərbaycan ədəbiyyatının yeni məzmun və formada inkişafında Mirzə Fətəli Axundzadənin (1878-1812) çoxşaxəli və zəngin yaradıcılığının mühüm rolu vardır. Özünün məharətli qələmi ilə yaratdığı yeni bədii üslub və yaradıcılıq nümunələri Azərbaycan maarifçi realizminin zirvəsini təşkil etmişdir. XIX əsrin ortalarında Azərbaycan maarifçi realizmi M.F.Axundzadə üslubu və yaradıcılığı ilə kamala çatmışdır. Onun peşəkar yaradıcılıq fəaliyyəti sayəsində həmçinin Azərbaycan ədəbiyyatı tarixinə dramaturgiya, ədəbi tənqid, peşəkar bədii nəsr kimi ədəbi növ və janrlar daxil olmuşdur. Axundzadənin altı dram əsəri Azərbaycan dramaturgiyasının əsasını qoymaqla bərabər, Azərbaycan teatrının yaranması və inkişafına da vəsilə olmuşdur. *"Mirzə Fətəli Axundov özünün bütün elmi-ədəbi fəaliyyəti, fəlsəfi irsi və yaradıcılığı etibarilə ictimai-siyasi, ədəbi-estetik fikrimiz tarixində keyfiyyətcə yeni-yeni ideya istiqamətinin əsasını qoymuşdur"* [9, s.5].

## Əsas hissə / *Main Part*

M.F.Axundzadənin böyük yaradıcılıq nailiyyəti olan "Aldanmış kəvakib" əsəri həm ədibin, həm də ümumən Azərbaycan ədəbiyyatı tarixinin mühüm səhifələrindən birini təşkil edir. "Aldanmış kəvakib" əsəri (1857) ədəbi növ etibarilə Azərbaycan bədii nəsrinin peşəkar inkişafına yön verməklə bərabər, ilk povestin nümunəsi kimi də özünəməxsus mövqeyə malikdir. Povest ideya-məzmun keyfiyyətlərinə görə ədibin digər əsərlərilə birləşərək, Axundzadənin cəmiyyət və həyat haqqında görüşlərini və konsepsiyasını təzahür etdirmişdir. Belə ki, *"Əsər münəccimlərin ifşa xətti ilə "Kimyagər" və "Hekayəti-müsyö Jordan..." komediyaları, şahlıq mütləqiyyətini və saray məmurlarını tənqid xətti ilə isə "Sərgüzəşti-vəziri-xani-Lənkəran" komediyası ilə birləşir"* [6, s.322].

Əsər adından tutmuş, bədii məzmunu və ədəbi probleminə qədər Azərbaycan ədəbiyyatı və ədəbi düşüncəsi üçün mühüm mövqe daşımaqdadır. Əsər zahirən tarixi mövzuda yazılsa da, müəllif bu üsuldan ədəbi interpretasiya kimi istifadə etmiş, əsərin daxili qatlarında özünəməxsus şəkildə daha dərin və müasiri olduğu məsələlərə toxunmağa müvəffəq olmuşdur.

Əsər ideya-məzmun etibarilə Şərq despotizmini ələ salan, ciddi tənqidi yüklü bədii nəsr nümunəsidir. Azərbaycan bədii nəsrinin inkişafında mühüm nöqtə olan əsərin adında belə, hələ XIX əsrin sonlarına doğru meydana çıxacaq tənqidi realizmin estetikasına uyğun bir bədii gülüş, satirik, tənqidi mahiyyət mövcudur. Müəllif əsərin adını "Aldanmış kəvakib" qoymaqla, orta əsrlər Şərqində hakimiyyət və idarəçilikdə mövcud olan münəccimlik və falçılığı ifşa və tənqid etmişdir. *"M.F.Axundov bu əsərində tarixi bir faktdan istifadə edərək İranın ağlamalı halını kəskin satirada ifşa etmişdir. Şahın ağlasığışmayan zülmü, vəzirlərin son dərəcə axmaqlığı, mollabaşının din və Allah adı ilə qan axıtması, məmurların rüşvətxorluğu, qanunsuzluğu, haqsızlığı, zorbazlığı çox məharətlə göstərilmişdir"* [11, s.164]. Əsərin adı ulduzların tale müəyyənləşdiriciliyinə inam və inancları ələ salmaqla gülüş doğurduğu kimi, məsələni bir az da genişləndirərək, bütövlükdə köhnə Şərq mütləqiyyət rejimi və despot idarəçiliyini tənqidə məruz qoymuşdur.

"Aldanmış kəvakib" əsərinin məzmunu və fabulası I Şah Abbas sarayının salnaməçisi olan İsgəndər bəy Münşinin "Tarixi-aləmarayi Abbas" – "Dünyanı bəzəyən Şah Abbasın tarixi" kitabındakı məşhur hadisədən götürülmüşdür. Bu barədə adıgedən əsərin Azərbaycan dilinə tərcüməçisi Şahin Fazil də yazmışdır ki, *"Mirzə Fətəli Axundov "Aldanmış kəvakib" əsərini məhz bu kitabın bir süjetindən əxz etmişdir"* [5, s.11]. Demək olar ki, bu fikir ayrı-ayrı tədqiqatçılar tərəfindən də deyilmiş və təsdiq edilmişdir.

Əsər qoşaadlıdır və əsərin məzmununda müəllif mövqeyini uğurla təzahür etdirir. Belə ki əsərin birinci başlığı "Aldanmış kəvakib" adlanmaqla, artıq qeyd və şərh etdiyimiz kimi, Şərq despotik idarə sisteminin münəccimlik, yəni falçılıq əsasında idarətemə ənənəsini ifşa

məqsədi daşımış və tənqidi gülüş ifadə etmişdir. Amma ikinci ad – "Hekayəti Yusif şah" adı ədəbi xarakter etibarilə demokratik idarəçilik və cəmiyyət haqqında müəllif ideallarını təcəssüm etdirmişdir. Bu baxımdan əsərdə müəllif tarixi hadisə, faktdan yararlanmaqla özünün fikir və arzularını söyləmiş, qənaət və tənqidlərini əks etdirmişdir.

Əsərin ekspozisiyasında deyildiyi kimi, *"Novruzdan üç gün keçmiş" Münəccimbaşı hökmdar Şah Abbasa ərz edir ki, "Novruzdan on beş gün keçmiş Mərrixin Əqrəb ilə iqtiranı vaqe olacaq və bu qirani nəhseynin təsiri budur ki, məşri-zəmində və bittərcih mülki-İranda sahibi-səltənətin vücuduna sədəmeyi-üzma yetişəcəkdir"* [2, s.171]. Əsərin fabulasını təşkil edən bu hadisə ideyaya hesablanmış məsələlərin açılmasına, əsərin süjet xəttinin düyünlənməsinə şərait yaradır. Əsəri əhatə edən bütün digər şaxələndirilmiş süjet xətləri, hadisə və əhvalatlar məhz bu hadisənin fonunda meydana gələrək, Şərq despotik idarə sisteminin saray mühitinə aydınlıq gətirməyə imkanlar açır. Şah qarşısında öz "şanlı və şöhrətli işlərindən" bəhs edən şah xidmətçiləri öz "qürurverici əməllərindən" bəhs etməklə, əslində özlərini və mənsub olduqları despotik idarə üsulunu ifşa etmiş olurlar. Məlum olur ki, Vəzir Mirzə Möhsün saray xəzinəsinin zənginləşdirilməsi məqsədilə qərara gəlmişdir ki, *"çakərani-dərgahdan hər kimsə ki bir süğlə və ya bir vilayətin hökumətinə mənsub olsa, fəraxuri-halına görə bir məbləğ berəsmi-peşkəş xəzinəyə təslim etsin və əlavə hər zaman ki, qibleyi-aləm bir əmirin kaşanəsini təşrifi-qüdumu ilə mübarək etsə, sahibi-kaşana əqmişeyi-nəfisə payəndaz və bir miqdar pul peşkəş eləsin"* [3, s.190].

Müəllif mütləqiyyəti idarə üsulunun məğzini açmaq və göstərmək məqsədilə müəllif sözü və ya təhkiyə vasitəsilə deyil, bilavasitə saray adamlarının ən əhəmiyyətli şəxslərinin öz dilindən verilən fikirlərlə aydınlaşdırmağa üstünlük vermişdir. Bu mütləqiyyətin despotikliyi elə ilk etiraflardan aydın olur ki, bu ölkədə müəyyən mövqe və yaşam üstünlüklərinə malik olmağa görə şah xəzinəsinə "vergi" və ya "rüşvət" ödənilməlidir. Müəllif Vəzir Mirzə Möhsünün əmri xüsusunda sarayda rüşvətin qanuniləşdirilməsi hadisəsini əks etdirmişdir.

Böyük maarifçi və filosof M.F.Axundzadə despotizmi saray əyanlarının xarakteri, ağlı, dünyagörüşü və idarəçilik üslubu ilə ifadə etmişdir. Yəni bir ölkənin idarəçi məmurlarının iş üslubu, idarə tərzi və əmrlərinin məzmunu xüsusunda həmin ölkənin ümumi idarəçiliyi öz simasını tapmışdır. Şah Abbas hakimiyyətinin sərdarı Zaman xanın əmr və tapşırıqları isə, ümumiyyətlə, bu idarəçiliyi çox dəqiq və aydın ifadə və təzahür etdirmiş olur. Sərdar Zaman xanın etirafından məlum olur ki, Osmanlı qoşunları İran ölkəsinə hücum edən zaman tapşırıq vermiş imiş ki, *"Osmaniyyə sərhədindən ta nəhayəti-mülki-Azərbaycan tamam dəhaqinin ziraətini xarab etsinlər və çaparlarını qovub gətirsinlər. Körpüləri dağıtsınlar və yolları pozsunlar"* [3, s.191]. Müəllif despotik hakimiyyətin iflasını və idarəçilik çöküşünü göstərmək üçün təkcə bununla kifayətlənmir, "yolları pozmaq və körpüləri dağıtmaqla" bərabər, onları belə pozuq və dağınıq saxlamağı dövlətin müdafiə siyasəti olaraq qəbul etməsi timsalında daha uğurla təqdim etmişdir. Beləliklə, müstövfi Mirzə Yəhyanın qoşun və vəzifəli şəxslərin əməkhaqlarının qaldırılması haqqında qərar verib, ardınca da maliyyə işçilərinə bu artımları ödəməmələri haqqında tapşırıqlar verməsi, o cümlədən Mollabaşı Axund Səmədin sünniməzhəb adamları zorla şiələşdirməsi kimi davamlı tədbirləri fonunda əsərdə Şah Abbas səltənəti və idarəçilik sisteminin despotik mahiyyəti öz təzahürünü tapmışdır.

Əlbəttə, əsərdə ağılsız və axmaq hökmdar kimi, Şah Abbas və onun despot məmurları mütləqiyyət quruluşu və onun idarəçilik üsulunu təmsil edirlər. Şah Abbası ulduzların bəlasından qorumaq haqda "tapılan qeyri-adi yol" məhz bu üsulun və idarəçiliyin "fövqəl tapıntısı" kimi onun mahiyyətini əks və tənqid etmək məqsədi daşımışdır. Doğrudur, müəllif bu qeydləri "Dünyanı bəzəyən Şah Abbasın tarixi" kitabından götürdüyünə inandırır, lakin bu faktlar, əlbəttə ki, bədii metod olaraq müəllifin köhnəliyin, despot quruluşun, mütləqiyyət üsulunun tənqidinə yönəldilmişdir. Söz yox ki, müəllifin bu kimi despotik idarə və üsul hakimiyyətini göstərməklə məqsədinin demokratik cəmiyyət və idarəçilik haqqında ideallarının əks edilməsi olduğunu qətiyyətlə deyə bilərik. Çünki

mövcud hakimiyyətin gözündə günahkar və cəzalandırılmalı bir şəxs kimi, Yusif Sərracın hakimiyyət başına gətirilməklə, bir tərəfdən, Şah Abbasın canına gələn ulduz bəlasını ortadan qaldırmaqdırsa, digər tərəfdən, Yusif Sərracın özünü cəzalandırmaqdır. Lakin müəllif Yusif Sərrac kimi oxumuş, dünyagörüşlü və xalq tərəfdarı olan bir adamın hakimiyyətə gəlməsindən özünün demokratik cəmiyyət və hakimiyyət quruculuğu haqqında ideyalarının bədii ədəbiyyata gətirilməsi vasitəsi kimi istifadə etmiş və sanki illərlə despotik idarə üsulu altında yaşamış bir cəmiyyətin demokratik bir hakimiyyət və idarəçilik altında yaşaya bilməsi haqqında sınaq aparmış olur. Bu cəhətdən Yusif Sərrac dünyagörüşü və davranışları ilə əsərdə M.F.Axundzadənin demokratik idarəçilik və cəmiyyət ideallarını təmsil edir. Yusif Sərracın hakimiyyət başına gələn kimi həyata keçirmək istədiyi ardıcıl islahatlar sistemi ideal olaraq müəllifin özünün Şərq dövlət idarəçiliyi barəsində ideallarının ifadəsidir. Əslində, Yusif Sərrac obrazının özü də müəyyən mənada əsərin müəllifi Mirzə Fətəli Axundzadənin özünün prototipidir. Belə ki, müəllifin Yusif Sərrac obrazı haqqında verdiyi məlumatlarda onun *"Kərbəlayi Səlim adlı bir dehqanın oğlu"* olması, *"oğlunun molla olub üləma silkinə daxil olması"* [3, s.196] barəsində qeydləri M.F.Axundzadənin Xamnəli atasının sadə bir rəiyyət olması, ana babası və müəllifin atalığının məşhur və tanınmış axund Hacı Ələsgər olması reallıqlarını xatırlatmış olur. M.F.Axundzadənin tədqiqatçısı olan N.Məmmədli də təsdiq edir ki, Yusifin tərcümeyi-halı bütünlüklə M.F.Axundzadənin bioqrafiyası ilə həmahəngləşir [12, s.252]. Bu mənada Yusif Sərracın hakimiyyəti zamanı irəli sürdüyü islahatlar paketi də, əslində, Mirzə Fətəlinin özünün ürəyindən olan vacib və təxirəsalınmaz islahatlar kimi diqqəti cəlb edir. Əsərin bir yerində, daha doğrusu, Şah Abbas əyanlarının bazar meydanına gəlib Yusif Sərracı aparmazdan bir az əvvəl onun dilindən deyilən sözlər, bir tərəfdən, mövcud dövlətin nöqsanlarını ifşa etmək məqsədi daşıyaraq, Yusif Sərracın açıqgözlü və cəsarətli olmasını göstərirsə, digər tərəfdən, müəllifin özünün Şərq ölkələrindəki idarəçilik sistemi haqqında narazılığının təzahürü kimi maraq doğurur: *"Təəccüb edirəm bu dövlətdən ki, Qəzvinə su çıxarmaq üçün həzar günə istitaət qüdrəti var, amma belə qəflətdədir ki, əsla bu əmrə mültəfit olmayıb öz rəayasının halına və paytəxtinin rövnəqinə təvəccöh etmir"* [3, s.199]. Bu məqamda Yusif Sərracla saray əyanları arasında yaşanan dialoq da müəllifin tənqidi düşüncəsinə çox münasibdir və cəhətdən bədii məqsədəuyğundur. Belə ki, despotik idarə üsulunun gülünc bir hadisəsi olaraq hökmdarlığa dəvət alan Yusif Sərracın Mollabaşı Axund Səmədin və Sərdar Zaman xanın sözlərinə inamsızlıqla yanaşaraq onların fikirləri və davranışlarını ələ salmasını müəllifin öz məqsədinin tərkib hissəsi olduğunu deyə bilərik. Yusif Sərracın bütün heyrətilə *"mən hara, təxtü-tac hara?"* [3, s.200], – deməsi əslində münəccimlik və falçılığa istinadən hakimiyyət sürən despotik bir idarə sisteminin halına, əhvalına ifşaedici gülüş məqsədi daşıyır. Həmişə bazarda oturub kasıblığını etməsinə baxmayaraq, ölkəsi haqqında xəyallar quran, hakimiyyəti yaramazlıqda günahlandıran Yusif Sərrac üçün indi əlinə düşən fürsəti arzularını gerçəkləşdirməyə, ölkəsində yaramazlıqları ortadan qaldırmağa və onu inkişaf etdirməyə sərf edir.

İlk növbədə Şah Abbas səltənətinin köhnə yaramaz məmurlarından qurtulmaq məqsədilə onların həbsindən başlayan Yusif Sərrac hökmdar kimi ilk qərarları ilə islahatlara start verdi və həbs edilmiş əyanların yerinə özünün etibar etdiyi şəxsləri təyin etdi. Yusif Sərracın şahlığı ilk qərarı və hökmünün ədalətliliyi ilə diqqəti cəlb edir. Yusif Sərrac ilk əmrindən başlayaraq günahsız cəzalandırmaları, vergi toplamaları və s. ləğv edərək, səltənətə ədalət və mərhəməti gətirmək istəyini ortaya qoydu. Təyin edilən baxıcılara tapşırıq verdi ki, məmləkətdə müşahidə edilən yaramazlıqlar, rüşvətxorluq və talançılıqlar şaha xəbərdarlıq edilməklə ortadan qaldırılsın ki, xalq rahat nəfəs alsın, zülmdən azad olsun. Yusif Sərracın qərarları və görmək istədiyi tədbirlər sırasında ölkədə quruculuq işlərinin həyata keçirilməsi məsələsi dayanır. Belə ki, Yusif Sərrac hökm etdi ki, *"Hər yerdə yollar təmir olunsun və lazımi məqamlarda və mənzillərdə körpülər və karvansaralar tikilsin və hər vilayətdə şəfaxanalar qayrılsın və mədrəsələr açılsın və susuz yerlərə su çıxarılsın,*

*dullara, yetimlərə və şillərə və korlara ianət və himayət göstərilsin"* [3, s.206] və s.

Yusif Sərracın müəllif Axundzadənin ürəyincə olan islahatları arasında dini məsələlərə münasibət məsələsinə əlahiddə, ayrıca yanaşmaq ehtiyacı da hiss olunmaqdadır. Belə ki, *"mən bütün külli-ədnanı puç və əfsanə hesab edirəm"* [2, s.205], – deyə "Kəmalüddövlə məktubları"nda konkret iradə nümayiş etdirən və daha çox "ateist" kimi tanınan, hətta dəfnində xalqın iştirak etməkdən imtina etdiyi bu görkəmli şəxsiyyətin "Aldanmış kəvakib" əsərində ədibin ideallarının daşıyıcısı və şəxsiyyət etibarilə proobrazı olan Yusif Sərrac hakimiyyətə gələrkən, həyata keçirdiyi islahatlar çərçivəsində ilk münəccimbaşı vəzifəsini ləğv etməsinə baxmayaraq, mollabaşı vəzifəsinə nəinki toxunmur, hətta bu vəzifəyə öz yaxın dostu Molla Ramazanı təyin edir. Fikrimizcə, bu məsələ ətrafında böyük Azərbaycan filosofu və ədibi M.F.Axundzadənin dinə olan nəzəri fikrinə aydınlıq gətirmək mümkündür. Belə ki, özünün qənaəti, nəzəri fikri və şəxsi mövqeyinə görə, M.F.Axundzadə qnostiklərdən, ağlın və dərkin gücünə, elmin və maarifin qüdrətinə inam bəsləyən fikir adamlarından biri idi. Fəlsəfi fikir tarixində minillərlə davam edən qnostiklərlə aqnostiklərin, teistlərlə ateistlərin, idealistlərlə materialistlərin mübarizəsində məhz M.F.Axundzadə də şəxsiyyət etibarilə qnostik və materialist olaraq mövqe tuturdu və bu, heç də onun şəxsiyyətinə xələl gətirmir, xidmətlərini kölgə altına qoymurdu. Lakin böyük ədibin yaşadığı XIX əsrdə artıq dini təsisatla bağlı tənqidi düşüncə mövcud idi və ictimai-siyasi idarəçilikdə dini təsisatın ortadan qaldırılması, yalnız xalqın iman və inam bəslədiyi, daha çox əxlaqi-mənəvi əhəmiyyətə malik, adət-ənənə institutuna daxil olan bir inanclar sistemi kimi yaşaması fikri hakimlik təşkil edirdi. Avropa intibahından qaynaqlanaraq, Azərbaycan maarifçiliyində də mövqe tutan bu fikir Axundzadədən sonra Məhəmmədağa Şahtaxtlı kimi böyük fikir adamının yaradıcılığında daha da konkretləşdi və sonrakı fikir adamları, ziyalılar tərəfindən davam etdirilərək ictimai yaşayışda din "inam və vicdan azadlığı" fonunda dəyərləndirmə tapmış oldu. M.F.Axundzadə də dinin ictimai düşüncə və yaşamda əxlaqi-mənəvi yerinin möhkəmliyini nəzərə alaraq, onun ortadan qaldırılmasına hələ heç bir cəmiyyətin hazır olmadığı fikrinə gələrək, "Aldanmış kəvakib" əsərində dinlə bağlı məsələdə olduqca həssas və ehtiyatla davranmalı olur, bu üzdən də hökmdar Yusif Sərrac şah da mollabaşı vəzifəsini ləğv etmək əvəzinə, daha çox dini məsələləri düzgün idarə etmək mövqeyini ortaya qoymuşdur. Bu da Yusif şahın ədalətinin bir nümunəsi və təzahürü olaraq qiymətləndirilə bilər ki, əsərdə dinə nəzarət məsələsi ilə də bağlı demokratik bir qərar verilərək dinə nəzarət mexanizmi hökumətin öz səlahiyyətinə verilir və bu münasibətlə həm də özbaşına üləmalıq edilməsinin, xurafat və cəhalət yayılmasının qarşısı alınsın deyə, üləmaların da müəyyənləşdirilməsi dövlət vəzifəlilərinin ixtiyarına verilmiş olur. Bu tədbirlər şah tərəfindən həm də xalqın maarifinə savadsız və moizəçi mollalar tərəfindən ciddi xələl gəlməsin deyə həyata keçirilir.

Yusif şah hakimiyyəti dövründə dövlətin xalqa qayğı göstərməsi, quruculuq tədbirləri həyata keçirməsi və xalqın, əhalinin qayğısına qalması prinsipini də demokratik idarəçilik ənənəsi olaraq təsbit etməyə müvəffəq oldu. Belə ki, Yusif şah əmr etdi ki, *"Qəzvinin küçələri genəlsin, içində zahir olan quyular örtülsün ki, gəlib-gedənlər onlara düşməkdən məhfuz olsunlar və xalqın ərzinə qulaq asmağa və dadına yetişməyə qayda və qərar qoydu"* [3, s.207]. Fikrimizcə, Yusif şahın bu qərarı daxilində müəllif fikir və söz azadlığı ideyasını da təsbit etmişdir. "Xalqın ərzi" ifadəsi, fikrimizcə, xalqın sərbəst söz azadlığı fikrini də əhatə və təsbit edir. Eləcə də yeni şahın tapşırığı ilə paytaxtın kasıb sakinlərinə dövlətin hesabından buğda verilməsi tədbiri də hakimiyyətin xalqa enməyi, xalqın həyat qayğılarına dəyər verməyinin ifadəsi kimi yer alır. Şəhərə su çəkilişi üçün konkret addımlar atmağa başlanması da hakimiyyətin xalq mənafeyinə xidmətinin bir təzahürü olaraq demokratizm kəsb edir. Axundzadə, fikrimizcə, Yusif şahın qısamüddətli idarəçiliyinə demokratik cəmiyyət və idarəçilik haqqında ideyalarını gerçəkləşdirmək məqsədi yükləmişdir. Mütləqiyyətin hələ möhkəm olduğu bir dönəmdə özünün demokratik cəmiyyət barəsində görüşlərini bir ədəbi əsərin imkanları daxilində əks etdirməyə müvəffəq olmuşdur.

Ümumiyyətlə, ədalətlə cəmiyyətə rəhbərlik etmək ideyası Axundzadənin mənsub olduğu Azərbaycan ədəbiyyatının əsilli və köklü bir məsələsi idi. Yusif şah da ədalətlə qərar vermək və rəhbərlik etmək üçün bütün var-qüvvəsi ilə çalışaraq təkcə yerli əhali ilə deyil, həm də əcnəbi xalqlardan olan insanlarla da ədalətli davranış nümunəsi sərgiləyərək, demokrtik cəmiyyətin modelini ortaya qoymuş oldu. Belə ki, Yusif şah ölkəsində yaşayan holland xalqının nümayəndələrinin dövlətdən olan xahişinə ədalətlə qərar verməklə öz demokratizmini və ədalətli idarəçiliyini də göstərdi. Haqlı olaraq akademik F.Qasımzadə yazır: *"Yusif şahın islahatçılıq fəaliyyəti başdan-ayağa qədər demokratik prinsiplər üzərində qurulur"* [6, s.331]. Yusif şahın demokratizmi həm də orda idi ki, o, ümumən, öz islahatları ilə dövləti və məmurları səlahiyyət bolluğu və özbaşınalığından məhrum etməklə bərabər, onların zülm və səlahiyyət fürsətçilliyindən də qurtulmaq yolunu müəyyənləşdirir, xalqı söz sahibi etməklə zülmü ortadan qaldırmaq və məmuriyyəti xalqın xidmətinə vermək niyyəti güdürdü.

Əlbəttə, bir əsərin imkanları daxilində müəllif öz demokratik görüşlərinin tam bədii əksinə nail ola bilməmişdir. Bu, həm də hələ vaxtın tam yetişməməsi, uyğun bir zamanın olmaması ilə də bağlı idi. Çünki bir sıra demokratik islahatlara hələ ictimaiyyət hazır deyildi və bunu əsərin final hissəsi də aydın nümayiş etdirir. Belə ki, xalqın mənafeyinə hesablanmış bir yeni hökumət qurmuş Yusif şahın idarəçiliyinin demokratikliyindən bezən xalqın onu acizlikdə günahlandıraraq, köhnə zalım məmurların fitvası ilə yeni şahın devrilməsinə yardım göstərmələri məhz qeyd edilən fikrin təzahürü idi. Buna görə də F.Qasımzadənin fikirlərini nəzərə alsaq, ədib bu mövzunu davam etdirmək istəmiş və Yusif şahın hekayətinin davamı yolu ilə özünün yeni görüşlərini bədii ədəbiyyat vasitəsilə əks etdirmək niyyətində də olmuşdur [6, s.331].

M.F.Axundzadənin "Aldanmış kəvakib" povesti, bir sıra məsələləri nəzərə alınmaqla qəti şəkildə iddia edə bilərik ki, mövzuca tarixilik kəsb etsə də, problem və ideyaca müasirlik kəsb edir və müəllifin öz dövrünə uyğun ideallarını əhatə edir. Bununla bağlı povestin ən yaxşı tədqiqatçılarından olan Nadir Məmmədli də yazmışdır: *"Povestin mövzusu tarixi hadisədən alınsa da, o öz bədii məzmununa, satirik istiqamətinə və müsbət ideyasına görə tam müasir səciyyə daşıyır"* [7, s.22]. Bu barədə daha sanballı tədqiqatları ilə çıxış edən Şahbaz Şamıoğlu "Aldanmış kəvakib": tarixi həqiqət və müəllif interpretasiyası" adlı məqaləsində əhatəli və etibarlı təhlillər apararaq, əsərdə heç də tarixi, real I Şah Abbasa qarşı ifşa missiyası aparmadığını, əsərdəki faktların "Dünyanı bəzəyən Şah Abbasın tarixi" əsəri ilə müəyyən mənada uyğunluq təşkil etsə də, daha çox sərbəst çıxış edən müəllifin müasiri olduğu hakimiyyət və idarəçilik problemlərini hədəfə aldığını və bunları da müəllif Axundzadənin öz fikirlərinə istinadən təsdiq etdiyini görürük: *"Göründüyü kimi, "Aldanmış kəvakib"dəki Şah Abbas tarixdəki Şah Abbas deyil! ...Zənnimizcə, o, idarəçilikdə tarixin Şah Abbasını deyil, öz dövrünün despotunun obrazını yaratmış, Şah Abbasın timsalında Nəsrəddin şahı ifşa etmişdir. Beləliklə, biz belə hesab edirik ki, M.F.Axundzadə "Aldanmış kəvakib"də bir tərəfdən İranda hökm sürən siyasi, iqtisadi və mədəni mənzərəni təsvir etmiş, o biri tərəfdən xalq kütlələrinin azadlığa hazırlığının və münasibətinin mənəvi-psixoloji səviyyəsini göstərmək istəmişdir"* [10, s.259]. Hətta bunu da əlavə və qeyd edə bilərik ki, Yusif Sərracın tamamilə M.F.Axundzadənin xalq arasından çıxan hökmdar idealını ifadə etmədiyi və müəllifin sadə camaat arasından çıxan adamın hakimiyyəti idarə edə biləcəyinə də ümid bəsləmədiyi tədqiqatlarda göstərilmişdir [8, s.29]. Bu cəhətdən "Aldanmış kəvakib" əsəri haqqında səsləndirilən "*Povest (1857) zəif xarakterli Sultan Məhəmməd Xudabəndənin və zabitəli bir ananın üçüncü oğlu olan Şah Abbas Səfəvinin (1571-1628) İranı idarə etdiyi dövrün (1585-1628) tarixinə əsaslanır"* [13] kimi fikirləri elmi cəhətdən də doğru hesab etmək düzgün olmaz.

**Nəticə / *Conclusion***

Bütün qeyd edilənlərdən belə nəticə çıxarmaq olar ki, Axundzadə xalq hakimiyyəti ideyasını müdafiə etmiş [4, s.244], xalq hakimiyyəti ideyası ilə də özünün demokratizmini və demokratik cəmiyyət haqqında ideallarını ifadə etmişdir. Əsərdəki əhvalat da, obrazlar da müəllif üçün öz ideya və ideallarını ifadə vasitəsi olmuş, eləcə də o, tarixi fakt və hadisənin təsiri altında qalmayaraq, özünün yaradıcı yanaşması ilə sərbəst davranaraq demokratik cəmiyyət və idarəçilik haqqında görüşlərini bədii cəhətdən əks etdirmişdir.

**Ədəbiyyat / *References***

1. Azərbaycan ədəbiyyat tarixi (Akademik İ.Həbibbəylinin ümumi redaktəsi ilə). On cilddə, V c. Bakı: Elm, 2021.
2. Axundov Mirzə Fətəli. Bədii və fəlsəfi əsərləri. Bakı: Yazıçı, 1987.
3. Axundzadə Mirzə Fətəli. Əsərləri. Üç cilddə, I c. Bakı: Şərq-Qərb, 2005.
4. Həbibbəyli İsa. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri. Bakı: Elm, 2019.
5. Fazil Şahin. Tərcüməçidən. / İ.B.Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. Bakı: Şərq-Qərb, 2010.
6. Qasımzadə Feyzulla. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1974.
7. Məmmədli Nadir. M.F.Axundzadənin həyatı və bədii yaradıcılığı / M.F.Axundzadə. Əsərləri. Üç cilddə, I c. Bakı: Şərq-Qərb, 2005.
8. Məmməd Tahirə. Tendensiyalı yaradıcılıq, müəllif mövqeyi və ədəbi qəhrəman // "Poetika.izm", AMEA Ədəbiyyat İnstitutunun elmi əsərləri. Bakı: Elm və təhsil, 2014, №1.
9. Rüstəmov İzzət. Mirzə Fətəli Axundov. Bakı: Gənclik, 1986.
10. Şamıoğlu Şahbaz. "Aldanmış kəvakib": tarixi həqiqət və müəllif interpretasiyası // AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun "Filologiya məsələləri" jurnalı. Bakı, 2018, №1.
11. Şərif Əziz. Tapıntılar. Bakı: Yazıçı, 1987.
12. Мамедов Надир. Реализм М.Ф.Ахундова. Баку: Маариф, 1982.
13. Qeybullayeva Rahilə. "Aldanmış kəvakib" povesti / https://kulis.az/xeber/senet/%22Aldanmis-kvakib%22-povesti-colorredEssecolor-10788

## Проблема построения демократического общества в повести «Обманутые звезды»

**Лала Сеидзаде**
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: seyidzadeh@list.ru

**Резюме.** В статье говорится об идеях о построении демократического общества в произведении «Алданмыш кавакиб» (1857 г.), наиболее совершенном образце азербайджанской художественной прозы мощного писателя, просветителя-реалиста М.Ф.Ахундзаде. Отмечается, что основа жанра повествования была заложена в азербайджанской литературной прозе произведением «Обманутые звезды». В данной повести автор взял историческое событие из произведения «История шаха Аббаса, украсившего мир» как художественный факт, но действуя совершенно свободно, отразил свои критические взгляды на деспотичную власть и управление, изложил свои взгляды на новую, демократическую власть

и общество, основанное на народной власти. Ахундзаде попытался отразить свои идеи в направлении построения демократического общества на примере деятельности Юсифа Сараджа. По мнению автора, правительство должно спуститься к народу и народным заботам, устранить угнетение, взяточничество и насилие, провести созидательную работу в стране, создать свободу выражения народом своего мнения, открыть больницы и школы, распространить образование и создать условия для свободы слова и убеждений людей.

**Ключевые слова:** М.Ф.Ахундзаде, «Обманутые звезды», повесть, демократическое общество